

Vüqar Bayramov

## DAĞLAROĞLU

Nədir uzanmısan səssiz səmirsiz,
Nolar, aç gözünü, ay Dağlaroğlu.
Sən ki, danışardın, susan deyildin,
De, ürək sözünü, ay Dağlaroğlu.

Əmisən, atasan, qardaş kimisən,
Böyüklə, kiçiklə yoldaş kimisən,
İndi uzanmısan bir daş kimisən,
İtirmə özünü, ay Dağlaroğlu.

Mənim dövlətimsən, mənim varımsan,
Dar gündə köməyim, havadarımsan,
Qolumda gücümsən, dağ vüqarımsan,
Gəzirəm izini, ay Dağlaroğlu.

## GƏLMİŞƏM

*Mərhum Pirverdi Dağlaroğluna*

Dağlaroğlu, qəbrin üstdə diz çöküb,
Torpağını qoxlamağa gəlmişəm.
Əcəl səni bizdən alıb aparıb,
Əhvalını yoxlamağa gəlmişəm.

Tərsə dönüb həyatının növrağı,
Tökülübdü xəzan ömrün yarpağı.
Səndən qalan bu bir ovuc torpağı,
Gözüm üstdə saxlamağa gəlmişəm.

Sən gedəndən könül evim yasdadı,
Əcəl niyə namərdlikdə ustadı?
İtirmişəm sənin kimi ustadı,
Hönkür-hönkür ağlamağa gəlmişəm.

Kədər adlı izi qalan əcəlin,
İlan kimi qəfil çalan əcəlin,
Səni məndən ayrı salan əcəlin,
Ürəyini dağlamağa gəlmişəm.

Kaspi.-2016.- 10-14 sentyabr.-S.20.